**Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi**

**Mingəçevir Turizm Kolleci**

**Publik Hüquqi Şəxsi**

# KEYFİYYƏT TƏMİNATI SİYASƏTİ

**Tədrisdə Keyfiyyətin Təminatı şöbəsi**

**Mingəçevir 2023**

# Mündəricat

1. MTK- nın tarixi ....................(səh) 3

2. Missiya....................(səh) 3

3. MTK- nın gələcəyə baxışı (Vizyon)....................(səh) 3

4. MTK- nın hədəfləri....................(səh) 4

5. MTK- nın dəyərləri....................(səh) 4

6. MTK- nın Keyfiyyət təminatı mədəniyyəti....................(səh) 5

7. Təhsildə keyfiyyət təminatı siyasəti....................(səh) 5

8. Keyfiyyət təminatı sistemi üzrəişlərin icra mexanizmi....................(səh) 6

   8.1 Keyfiyyət təminat sisteminin monitorinq və qiymətləndirməsinin sxem təsviri.................... (səh) 7

9. Resursların idarə edilməsi....................(səh) 9

   9.1 Strategiya ....................(səh) 9

   9.2 Kollegial orqanlar....................(səh) 9

   9.3 İxtisaslar və onların təkminləşdirilməsi....................(səh) 9

*Təsdiq edirəm:*

*Mingəçevir Turizm Kollecinin*

*direktoru* ____________ *Kamal Əhmədov*

*14 sentyabr 2023-cü il*

# Mingəçevir Turizm Kollecinin Keyfiyyət təminatı siyasəti

Mingəçevir Turizm Kollecinin siyasət sənədi Azərbaycan Respublikası Qanunvericiliyi, "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi", Təhsil müəssisələrinin akkreditasiyası, MTK-nın Strategiyası və Nizamnaməsi nəzərə alınmaqla hazırlanmışdır.

## 1. Mingəçevir Turizm Kollecinin tarixi

Mingəçevir şəhərində turizm üzrə ixtisaslaşmış təhsil müəssisəsinin yaradılması üçün kifayət qədər iqtisadi tələbat olmuşdur. Yaranmış iqtisadi tələbata cavab olaraq Bakı Bədən Tərbiyəsi və Turizm Kollecinin Mingəçevir şöbəsinin bazasında Mingəçevir Turizm Kolleci yaradılmışdır. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 09 iyun 2006-cı il tarixli 1106 A2 447 nömrəli şəhadətnaməsi ilə dövlət qeydiyyatına alınaraq Mingəçevir Turizm Kolleci, 2006-cı ildən 2018-ci ilədək Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təsisçiliyi ilə fəaliyyət göstərmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 07 iyun 2018-ci il tarixli 255 nömrəli qərarına əsasən Mingəçevir Turizm Kolleci Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin strukturuna daxil olmayan tabeliyinə verilmiş təşkilatların sırasına daxil edilmiş və Turizm Kollecində mütəxəssis hazırlığı əyani və qiyabi təhsil formaları üzrə aparılır.

## 2. Mingəçevir Turizm Kollecinin missiyası

Ölkədə xidmət sektorunda mövcud iaşə müəssisələrində və turizm sənayesinin mövcud digər müəssisələrində çalışacaq müxtəlif səviyyəli ixtisaslı kadrların yetişdirilməsi yolu ilə yerli və xarici turistlərin məmnunluq səviyyəsini artıracaq rəqabətqabiliyyətli təhsil müəssisəsinə çevrilməkdir.

## 3. Mingəçevir Turizm Kollecinin gələcəyə baxışı (Vizyon)

- Ölkədə və regionda əmək bazarının tələblərinə uyğun, səriştəyə əsaslanan və yüksək keyfiyyətli kadr hazırlığına imkan verən tədris proqramlarına və metodlarına malik qabaqcıl OİT müəssisələrindən biri olmaq;

- İşəgötürənlər ilə sıx əməkdaşlıq qurmuş və qarşılıqlı dəstək formasında kadr hazırlığı aparan, OİT müəssisəsi olmaq;
- Region üçün önəmli sektorlardan olan turizm ixtisasları üzrə bütün maraq qrupları tərəfindən qəbul edilən və dəstəklənən kompetensiya mərkəzinə çevrilmək;
- Təhsilin məzmunu və formasının daim əmək bazarının tələblərinə cavab verən səviyyədə quran OİT müəssisəsi olmaq;
- Gənclərə aldıqları orta ixtisas təhsili ilə turizm sahələri üzrə iş imkanı verən OİT müəssisəsi olmaq.

## 4. Mingəçevir Turizm Kollecinin hədəf və məqsədləri

Keyfiyyətin Təminatı Mingəçevir Turizm Kollecinin fəaliyyətinin bütün aspektlərində, keyfiyyəti təmin etmək öhdəliyini müəyyən edərək, tədrisin keyfiyyətinin yaxşılaşdırılması, maddi-texniki bazasının gücləndirilməsi, kollecin adının brendləşdirilməsi, kadr potensialının və idarəetmənin təkmilləşdirilməsi, kollecin təşkilati struktur bölmələrinin hüquqi bazasının gücləndirilməsi və bu məqsədə nail olmaq üçün bütün maraqlı tərəflərin rol və məsuliyyətlərini müəyyən etmək məqsədi daşıyır. Siyasət Kollecin akademik, tədqiqat və ictimai xidmət məqsədlərinə cavab verməsini təmin etmək üçün keyfiyyət təminatı prosedurları və təcrübələrinin işlənib hazırlanması, həyata keçirilməsi, monitorinqi və qiymətləndirilməsi üçün çərçivə sənədini təmin etmək məqsədi daşıyır.

## 5. Mingəçevir Turizm Kollecinin dəyərləri

- Dinamizm–daim dəyişən əmək bazarının tələblərinə cavab verən kadr hazırlığını təmin etmək;
- Qarşılıqlı hörmət və ehtiram–əsas tərəfdaşlarımız, müəllimlər və tələbələr arasında qarşılıqlı hörmət və ehtiram daima yüksək səviyyədə olmasının təmin edilməsi;
- Vətənpərvərlik–bacarıqlı kadr hazırlığı ilə yanaşı ölkə üçün yararlı vətəndaş yetişdirilməsi;
- Faydalılıq–verilən qərarların və icra edilən fəaliyyətlərin əsas maraq qruplarımız (işçi heyəti, tələbə və məzunlar, tərəfdaş müəssisə və təşkilatlar) üçün faydalı və əhəmiyyətli olması;
- Məqsədyönümlülük–qarşıya qoyulan məqsədlərin daim izlənməsi və təlim və tədris prosesində onlara çatılması;
- Fikir azadlığı–hər bir şəxs və təşkilatın fikirlərinin dinlənməsi və onlara hörmət ilə yanaşılması;
- Nəticəyönümlülük–hər bir fəaliyyət uğurla nəticələnməlidir;
- Tələbəyönümlülük–hər bir fəaliyyətin və qərarın mərkəzində tələbə dayanmalıdır;
- Praktiki tədris yönümlülük–tədrisin praktiki və tətbiqi yönümlü aparılması;
- Özəl sektor yönümlülük – təlim və tədrisin özəl sektorun tələbləri və gözləntilərinə cavab verəcək formada qurulması;

- Məsuliyyətlilik–öz işinə və götürdüyü öhdəliyə müvafiq yüksək məsuliyyətin bütün maraq qruplarında yaradılması və mövcudluğu.

## 6. Mingəçevir Turizm Kollecinin Keyfiyyət təminatı mədəniyyəti

Keyfiyyət Təminatı Mədəniyyəti Mingəçevir Turizm Kolleci üçün davamlı təkmilləşdirmə, şəffaflıq və mükəmməllik mədəniyyətini aşılamaq və saxlamaq üçün yol xəritəsi rolunu oynayır. Bu prinsiplərə və təcrübələrə riayət etməklə, Mingəçevir Turizm Kollecinin təhsil və idarəetmədə ən yüksək keyfiyyət standartlarını təşviq edən mühiti inkişaf etdirməyi hədəfləyir.

Keyfiyyət mədəniyyəti– Kollecin bütün əməkdaşlarının qəbul etdiyi keyfiyyətin əsas prinsiplərini əhatə edən təşkilati qaydadır. Kollecin keyfiyyət mədəniyyəti aşağıdakıları nəzərdə tutur:

- əməkdaşların hər birində "təhsilin keyfiyyəti"nə vahid yanaşma və təhsilin keyfiyyəti probleminə vahid dünyagörüşünün formalaşdırılması;
- struktur bölmələrinin yüksək keyfiyyətə doğru irəliləmə yollarını müəyyən etməsi və başa düşməsi;
- keyfiyyəti idarə etmək mümkünlüyünün və bu prosesin mexanizmini müəyyən etmək yollarının başa düşülməsi;
- bütün predaqoji-müəllim heyəti, kollec və işçi heyətin müəyyən edilmiş standartlara riayət edərək davamlı təkmilləşdirmə fəaliyyətlərində və keyfiyyət təminatı mədəniyyətində fəal iştirakı;
- tələbələrin rəylərinin toplanması və təhlili üçün sistemli mexanizm tətbiq olunaraq, əldə edilmiş məlumatlardan tədris, öyrənmə və dəstək xidmətlərinin keyfiyyətini artırmaq üçün istifadə olunması.

## 7. Təhsildə keyfiyyət təminatı siyasəti

Mingəçevir Turizm Kollecinin tədrisin keyfiyyəti sahəsində dövlətin bu günkü tələblərinə uyğun yaradıcı düşüncəyə malik, turizmin ayrı-ayrı sahələri üzrə inkişafını planlaşdıran, onu reallaşdıran və inkişaf etdirə bilən, gələcəkdə mütəxəssis kimi fəaliyyət göstərə biləcək kadrların hazırlanma sisteminin yaradılması və təşkilindən ibarətdir. Tədrisin keyfiyyəti sahəsində siyasət, onun strategiyası və prosedurları rəsmi statusa malikdir və hamı üçün açıqdır, tələbələr və digər maraqlı tərəflərin bu siyasətdə iştirakı təmin olunur.

Kollecdə tədrisin keyfiyyəti sahəsində siyasət aşağıdakı prinsiplərlə reallaşır:

- Kollecin keyfiyyət və standartlarının strategiyasının müəyyənləşdirilməsi;
- Daxili keyfiyyət təminat sisteminin təşkili;
- Kollecdə təhsilin elmi axtarışlarla qarşılıqlı əlaqəsinin təmin edilməsi;
- FBK-ların və digər şöbələrin, eləcə də ayrı-ayrı fərdlərin keyfiyyətin təminatı üçün məsuliyyət daşıması;
- Keyfiyyətin siyasətinə tələbələrin cəlb edilməsi;

- Müəllimlərin peşə keyfiyyətinin yüksəldilməsinə dəstək;
- Tədrisin keyfiyyəti siyasətinin yerinə yetirilməsi, onun üzərində nəzarət və onun yoxlanılması yollarının müəyyənləşdirilməsi;
- Bütün strukturların fəaliyyətini, eləcə də iş planlarını Strategiyaya uyğun qurması, strateji məqsədlərə nail olunması üçün mütəmadi çalışılması;
- Pedaqoji heyət üzvlərinin elmi tədqiqat işlərinin dəstəklənməsi;
- Kollecdə fənn proqramlarının və sillabusların müasir standartlara cavab verəcək şəkildə formalaşdırılmasına dəstək;
- Elektron sənəd dövriyyəsinin, rəqəmsallaşma xidmətlərinin mütəmadi təkmilləşdirilməsi.

Mingəçevir Turizm Kollecinin Tədrisdə Keyfiyyət Təminatı şöbəsi keyfiyyət siyasətini işçi heyətinin diqqətinə çatdırılması və bütün əməkdaşlar tərəfindən onun tələblərinə əməl edilməsi və təkmilləşdirilməsini təmin edir.

## 8. Keyfiyyət təminatı sistemi üzrə işlərin icra mexanizmi

Mingəçevir Turizm Kollecində kredit sistemi ilə tədrisin təşkili, tədris olunan fənlərin mövzu, hədəf, təlim nəticələri və qiymətləndirmə üsulları, kollecin elektron kitabxanasının zəngin və əlçatanlığı, tələbələrə tətbiq olunan fərdi yanaşma, biliyin qiymətləndirilməsində şəffaflıq və ədalətlilik prinsipinin qorunması, tyutor xidmətinin qənaətbəxş səviyyədə təşkili, akademik dürüstlüyə dair təbliğat və kollecdə verilən təhsilin keyfiyyətinin təkminləşdirilməsi işinin təşkili Keyfiyyət Təminatı sistemi mexanizmi üzrə icra edilmişdir.

**Sxem 1. Görülən işlərin icra mexanizmi**



**Planla:** Standartlar, tədbirlər, göstəricilər, hədəflər daxil olmaqla keyfiyyəti qorumaq və ya yaxşılaşdırmaq və nəticələrə nail olmaq üçün planların, sistemlərin, proseslərin və məsuliyyətlərin müəyyən edilməsi;

- Nə edəcəyimizi və necə edəcəyimizin planlaşdırılması;
- Tədbirlər;
- Təlimlər;
- Qaydalar;
- Tövsiyələr.

**İcra et:** Planda olan tədbirlərin icra edilməsi; İrəliləyiş/fəaliyyət/nəticələrin müntəzəm monitorinqi və planlaşdırılmış tədbirlərin, o cümlədən hesabatların həyata keçirilməsi.

**Nəzarət:** Planın icrasına nəzarət edilməsi və ilkin planın həqiqətən işlədiyinin yoxlanılması planlaşdırılmış düzəlişlərin effektivliyinin və təsirinin qiymətləndirilməsi də daxil olmaqla, planlaşdırılan düzəlişlərin nə qədər arzu olunan effektivliyin dəlillərə əsaslanan araşdırması və qiymətləndirməsi.

**Tədbir al:** Monitorinq nəticələrinin qiymətləndirilməsi və sapmaların səbəblərinin aşkarlanması.

**Keyfiyyət təminat sisteminin monitorinq və qiymətləndirməsinin sxem təsviri**

Müasir təhsil prosesi təhsilalanların qarşısında bilik cəmiyyətinin yaratdığı reallıqlara uyğunlaşmaq, keyfiyyətli təlim və tədris prosesinin yekununda müvafiq bacarıq və səriştələri əldə etmək, rəqabətə davamlı mühiti təmin etmək, eləcə də çevik və strateji idarəetməyə malik olma tələbləri formalaşdırır. Monitorinq, təhlil, qiymətləndirmə və proqnozlaşdırma kollecin və pedaqoji fəaliyyətin daha səmərəli və rəqabətədavamlı qurulmasına, kollecin icma qarşısında hesabatlılığının təmin edilməsi, imic, nüfuz və statusunun yüksəldilməsinə xidmət edir.

Kollecdə tədris və tələbəyə dəstək xidmətlərinin keyfiyyətinin planlaşdırılması, tələbə yönümlü tədris mühitinin formalaşdırılması, tədris-metodiki işin təkmilləşdirilməsi, keyfiyyət təminatı işinin təşkili Keyfiyyət təminatı şöbəsinin dəstəyi ilə həyata keçirilir. Keyfiyyət təminatı müəssisənin fəaliyyətinin standartlara uyğun olaraq təşkil olunmasına zəmin yaradır. Monitorinq və qiymətləndirilmə sisteminin tətbiqi vasitəsilə pedaqoji heyətin və təhsilalanların fəaliyyətini təkminləşdirilməsi üçün daim nəzarətdə saxlayır.

**Sxem 2. Monitorinq və qiymətləndirmə sistemi**




Sistemin tətbiqinə rəhbərlik, Tədrisdə Keyfiyyət Təminatı şöbəsi, struktur bölmələr, təhsilalanlar, maraqlı tərəflər, fənn birliyi komissiyaları iştirak edir və proses Tədrisdə Keyfiyyət Təminatı şöbəsi vasitəsilə koordinasiya edilir. Strukturlar arası əlaqə aşağıdakı kimidir.

**Sxem 3. Keyfiyyət təminatı sistemində strukturlararası əlaqə**




**FBK-** Ümumtəhsil fənn birliyi komissiyasının müəllimləri, Xarici dillər fənn birliyi komissiyasının müəllimləri, Turizm fənn birliyi komissiyasının müəllimləri, Sosial, iqtisadi

və texniki fənn birliyi komissiyasının müəllimləri
**Maraqlı tərəflər-** Təhsil müəssisələri, Turizm Sənayesi və işəgötürənlər, otellər, validеynlər, Gənclər təşkilatı
**Struktur bölmələr-** İnsan resursları, Tədris, Kitabxana, Tyutorlar.
**Təhsilalanlar-** Tələbələr və şagirdlər.

## 9. Resursların idarə edilməsi

### 9.1 Strategiya

Mingəçevir Turizm Kollecinin Strateji inkişaf planı 2021-ci ildə Dövlət Turizm Agentliyi ilə birgə aparılmış danışıqlara əsasən kollecin 5 illik hədəfləri müəyyənləşdirilmiş, Agentliyin Strateji planına uyğunlaşdırılaraq hazırlanmış və müzakirə olunaraq maraqlı tərəflər müəyyənləşdirilmiş, SWOT və PESTEL təhlillər aparılmış, strategiyanın tertibatı qaydası, məqsədlər müəyyənləşdirilməklə Mingəçevir Turizm Kollecinin Pedaqoji Şurasının 29 oktyabr 2021-ci il tarixli, 02 saylı protokolu ilə MTK-nın 2021-2025-ci illər üzrə Strategiyası təsdiqlənmişdir: Strategiyada Kollecin missiyası, hədəf və məqsədləri illər üzrə öz əksini tapmışdır.

### 9.2 Kollegial orqanlar

- Pedaqoji Şura - MTK–ya rəhbərlik direktorun başçılıq etdiyi Pedaqoji Şura tərəfindən həyata keçirilir;
- Direktoryanı Şura - Kollecin bütün sahələrindəki fəaliyyətini, tədris-metodiki, maliyyə, tərbiyə, təsərrüfat fəaliyyəti məsələləri ilə bağlı qərarların vaxtında qəbulunu və optimallığını təmin edən direktor yanında operativ-məşvərətçi orqandır.

### 9.3 İxtisaslar və onların təkminləşdirilməsi

Mingəçevir Turizm Kollecində Nəqliyyatın logistikası, Mühasibat uçotu, Maliyyə işi, Turizm işinin təşkili, Turizm bələdçiliyi, İaşə müəssisələrinin servisi, Mehmanxana təsərrüfatının təşkili və idarə edilməsi, Rekreasiya, idman və sağlamlıq turizmi, Aqroturizm, Muzey işi və abidələrin qorunması ixtisasları üzrə peşəkar kadrların hazırlanması məqsədilə tədris Sosial, iqtisadi və texniki fənlər birliyi komissiyası, Ümumtəhsil fənlər birliyi komissiyası, Xarici dillər fənn birliyi komissiyası, Turizm fənn birliyi komissiyası olmaqla 4 kafedra üzrə həyata keçirilir. Peşəkar kadrların hazırlanmasında təhsil proqramlarının əmək bazarının tələblərinə uyğunlaşdırılması məqsədilə mütəmadi təkmilləşdirilməsi tətbiq edilir.

Mingəçevir Turizm Kollecində tədrisin səmərəli təşkili, inkişafı, keyfiyyətinin artırılması, təhsilalanlar, məzun və əmək bazarı nümayəndələri ilə koordinasiyanın təşkili, mütərəqqi qiymətləndirmə üsulu və vasitələrinin hazırlanması, maddi-təsərrüfat, eləcə də informasiya texnologiyaları resurslarının təkmilləşdirilməsi, sənədləşmənin təşkili və koordinasiyası məqsədilə inzibati şöbələr fəaliyyət gostərir.

Mingəçevir Turizm Kolleci publik hüquqi şəxsi, Pedaqoji Şurasının "14" sentyabr 2023-cü il tarixli qərarı ilə təsdiq edilmişdir (protokol № 01).